# Ustadla söhbət

## (Xalq şairi Bəxtiyar Vahabzadənin abidəsi önündə)

**Salam, ustad!**

Yenə də qədim Şəkidə - ata yurdunun mərkəzində yerləşən və 2009-cu ildən Sənin adını daşıyan parkda ucaldılmış abidənin qarşısındayam. Artıq vəfatından səkkiz il keçir, anım gününün ərəfəsindəyik, xatirəni böyük ehtiramla yad edirik. Ancaq biz Səni təkcə ildə bir dəfə, vəfatının ildönümü günündə anmırıq ki... Təkrar-təkrar əsərlərini oxuyuruq, dönə-dönə qayıdırıq Sənə, hər dəfə də şəxsiyyətinə, yaradıcılığına daha möhkəm tellərlə bağlanırıq. Qələminin adidə qeyri-adini göstərmək, damlada ümman yaratmaq qüdrətinə yenə heyran oluruq. Hər misranın, hər kəlmənin arxasında Sənin doğma vətənimiz, millətimiz üçün ağlayan gözlərini görürük, satqınlara, xainlərə alov püskürən hayqırtılarını eşidirik:

**Səhl Sumbat,**
**Sata bildin**
**Nəyi nəyə, kimi kimə?**
**Tək olsaydın,**
**Heç adını tutmaz idim,**
**Mikrob kimi ələnmisən**
**Tariximə!**

Bəli, beləcə həmişə sözünü və qələmini süngüyə çevirdin, satqınlara qarşı barışmaz oldun. Doğma Azərbaycanımıza ürəkdən bağlandın, onu sevə-sevə vəsf edərək "Xoşbəxtəm ki, vətənim Azərbaycandır mənim", - dedin.

Xalqımız öz azadlığı uğrunda mübarizəyə qalxanda daim meydanlarda oldun, əsl vətəndaşlıq mövqeyindən çıxışlar etdin. Üzündəki, alnındakı dərin qırışlarda "Gülüstan"dan "İstiqlal"a doğru gələn yolda çəkdiyin ağrı-acıların, əzabların izini gördük hər zaman. Şükürlər olsun ki, ölkəmizin öz azadlığına qovuşduğu günü görə bildin, üçrəngli bayrağımızın başımızın üstündə dalğalanmasından doğan qüruru yaşadın. Amma, təəssüf ki, əbədiyyət dünyana ürəyində dərin yara, qəlbində ağır nisgillə getdin, Qarabağ bülbüllərinin xoş sədasını, qələbə müjdəsini eşidə bilmədin. Bu misraları da qəlbindən qanlar axa-axa yazdın:

**Bu bahar oxuma, bülbül, sən allah,**
**Zülmətdir, yoluna şam tutanın yox.**
**Şuşan ağlar qaldı, köçdü el-oba,**
**Şirin cəh-cəhinə dəm tutanın yox.**
**Sən Cıdır düzündə cəh-cəh vuranda**
**Qədir hay verərdi sənə bir anda.**
**İndi bu dağlardan didərgin olduq,**
**İndi bu dağların Qədirləri yox.**

Bu haqsızlıq uzun sürməz, ustad, tezliklə elə bir gün gələr ki, böyük fəxrlə vəsf etdiyin "qurdbaşlı bayrağın balası" olan üçrəngli bayrağımız Şuşada yüksələr, bax, onda nigaran ruhun rahatlıq tapar.



Ümummilli liderimiz Heydər Əliyev də həmişə Sənin yaradıcılığını yüksək qiymətləndirirdi. Bu gün onun siyasi kursunun layiqli davamçısı olan cənab prezidentimiz iki il bundan qabaq anadan olmağının 90 illiyi münasibəti ilə sərəncam imzaladı və bu yubileyin ölkəmizdə yüksək səviyyədə qeyd edildl. O zaman sərəncamdakı bir cümlə diqqətimi daha çox çəkmişdi: "Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır". Bu, ölkə başçısı tərəfindən Sənin şəxsiyyətinə və yaradıcılığına verilmiş ən dəqiq və çox yüksək bir qiymət idi. Əziz şairimiz, həqiqətən də, ədəbiyyat tariximizdə Sənin xüsusi mövqeyin, özünəməxsus yerin var. Sən elə bir ədəbi və əbədi zirvədəsən ki, hər dəfə o zirvəyə baxanda özümüz də mənən ucalırıq.

Əziz anan vəfat edən vaxt yazdığın "Bu gün yeddin oldu" şeirində belə misralar var:

**Vaxt keçir, sən məndən uzaqlaşırsan,**
**Mən sənə günbəgün yaxınlaşıram.**

Bəli, Sən də bizdən uzaqlaşdıqca, biz Sənə daha çox yaxınlaşırıq.

**Ruhun şad olsun!**
**Nur içində yat, ustad!**

**Mayis Səlim,**
**Şəki**

ədalət.2017.18 fevral.S.11